# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№041** **19 mart 2021-ci il**

**Çağırış yaşlı vətəndaşların həqiqi hərbi xidmətə çağırılması haqqında**

“Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci ilin aprel ayının 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 02 mart 2021-ci il tarixli 2525 nömrəli Sərəncamı və “Hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq

**QƏRARA ALIRAM:**

1. Qobustan rayonunda olan 1986-2003-cü illərdə anadan olmuş gənclərin 2021-ci ilin aprel ayının 1-dən 30-dək həqiqi hərbi xidmətə göndərilməsini təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə rayon komissiyası yaradılsın:

| | |
|---|---|
| İ.Əhmədov | Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin rəisi, çağırış **komissiyasının sədri** |
| A.Şikarov | Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı |

**çağırış komissiyası sədrinin müavini**

**ÜZVLƏRİ:**

| | |
|---|---|
| A.Nəsibbəyli | Qobustan RPŞ-nin nümayəndəsi-komissiyanın üzvü |
| Q.Kərimov | Hərbi həkim komissiyasının baş həkimi |
| Q.Əkbərov | Qobustan Gənclər və İdman İdarəsinin müdiri-komissiyanın üzvü |
| H.Şabirli | İsmayıllı Regional Mədəniyyət İdarəsinin Qobustan rayonu üzrə nümayəndəsi-komissiyanın üzvü |
| K.Rəhimov | Rayon Təhsil şöbəsinin metodisti-komissiyanın üzvü |
| K.Əzizova | Komissiyanın katibi |

2. Çağırışçıların tibbi müayinədən keçməsi üçün Qobustan Rayon Mərkəzi Xəstəxanası-Publik Hüquqi Şəxsin həkimlərindən ibarət komissiya aşağıdakı tərkibdə təsdiq edilsin:

| | |
|---|---|
| R. Üzeyirov | Terapevt |
| C.Əliyev | Psixiatr |
| Q.Kərimov | Cərrah (müvəqqəti) |
| A.Camalov | Otorinolorinqoloq |
| P.Rəhimov | Stamotoloq |
| İ.Həsənova | Oftolmoloq |
| R.Babayeva | Dermatovenerologq |
| C.Əliyev | Nevrapotoloq (müvəqqəti) |
| S.Kərimova | Psixoloq |

X.Abıyev                    Rentgenoloq

3. Tapşırılsın komissiyaya vətəndaşların həqiqi hərbi xidmətə göndərilməsini təmin etmək məqsədi ilə operativ tədbirləri həyata keçirsinlər.

4. Rayon İcra Hakimiyyəti başçısının şəhər və kəndləri üzrə nümayəndələrinə tapşırılsın ki, çağırış yaşlı gənclərin çağırış məntəqəsinə göndərilməsini təmin etsinlər.

5. Rayon Polis şöbəsinin rəisi E.Babayevə tapşırılsın ki, həqiqi hərbi xidmətdən yayınan şəxslər barədə müvafiq inzibati tədbirlər görsün.

6. Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan Rayon Bölməsinin rəisi İ.Əhmədova tapşırılsın ki, komissiyanın fəaliyyəti üçün lazımı şərait yaratsın.

7. İsmayıllı Regional Mədəniyyət İdarəsinin Qobustan rayonu üzrə nümayəndəsi H.Şabiliyə tapşırılsın ki, çağırış məntəqəsində çağırışçıların təntənəli yola salındığı günlərdə mədəni kütləvi tədbirlər keçirsin.

8. Qobustan Rayon Mərkəzi Xəstəxanası-Publik Hüquqi Şəxsin direktoru E.Hüseynə tapşırılsın ki, həkim mütəxəssislərin komissiyada iştirakı üçün lazımi şərait yaratsın.

9. Qobustan rayonu ərazisində yerləşən bütün müəssisə və təşkilat rəhbərləri vətəndaşların həqiqi hərbi xidmətə çağırışını keçirmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan rayon Bölməsinə nəqliyyat və texniki işçilər ayırsınlar.

10. Tapşırılsın Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan Rayon Bölməsinin rəisi İ.Əhmədova vaxtaşırı görülən işlər barədə Rayon İcra hakimiyyəti başçısına məlumat versin.

**Qobustan rayonu İcra**
**hakimiyyətinin başçısı:**                **A.M.Məmmədov**